

2023 və 2024-cü illərdə Tunisin Monastir şəhərində Kyokuşinkay karate üzrə 20 ölkənin iştirak etdiyi Qış düşərgəsi və beynəlxalq turnir keçirilib. Hakimlərə və idmançılara peşəkar təlim məşqləri və seminarlar keçmək üçün ATU-nun “Təbib” idman klubunun sədri (hazırki adı “Təbib” Tədris İdman Mərkəzi) beynəlxalq dərəcəli hakim **Qələndər Aslanov** rəsmi dəvət alıb. 1760 idmançının iştirakı ilə təlim məşqləri keçən Q. Aslanov hakimlər üçün seminarlar da keçirib. Sonra yarışı idarə edən hakimlərin doğru verilməyən qərarları və digər qayda pozuntuları yerindəcə təmsilçimiz tərəfindən izah edilib, mübahisəli məsələlər aradan qaldırılıb və heç bir idmançının hakim ədalətsizliyi ilə üzləşməsinə imkan verilməyib.

Azərbaycan Karate Federasiyasi ATU-nun “Təbib” idman klubunun sədri (hazırki adı “Təbib” Tədris İdman Mərkəzi) **Qələndər Aslanovu** 2023-cü ilin yekunlarına əsasən beynəlxalq yarışlarda hakimlik fəaliyyətində yüksək peşəkarlıq və aktiv iştirakına görə “İlin hakimi” nominasiyası ilə təltif edib.




## ƏDALƏT TƏMSILÇIMIZ AVROPANIN ƏN YAXŞI HAKIMI SEÇILDI

2024-cü ilin sentyabrın 6-8-də Rumıniyanın Kluj Napoka şəhərində Kyokuşin karate üzrə Avropa çempionatı keçirilib. Çempionatda 25 ölkədən 400-dən çox idmançı iştirak edib. Ölkəmizi hakim və rəsmi nümayəndə kimi beynəlxalq dərəcəli hakim "Təbib" idman klubunun sədri (hazırki adı "Təbib" Tədris İdman Mərkəzi) Qələndər Aslanov təmsil edib. Ədalət təmsilçimiz Qələndər Aslanov Beynəlxalq Kyokuşin-kan Karate Təşkilatının prezidenti Royama Hatsuo və Baş Hakimlər Komitəsinin sədri Akira Koyama tərəfindən Avropada "Ən Yaxşı Hakim" seçilib və xüsusi hədiyyə ilə təltif olunub. Q. Aslanov hakimliyi dövründə dördüncü dəfədir (İlk dəfə 2012-ci ildə Rusiyada, 2016-cı ildə Türkiyədə, 2019-cu ildə İranda və 2024-cü ildə Rumıniyada) ki, Avropada və dünya çempionatlarında "Ən Yaxşı Hakim" seçilir. Belə hakimlik nəticəsi Azərbaycanın karate tarixində bir ilkdir.



2025-cü ilin iyul ayında Bolqarıstanın Burqas şəhərində Beynəlxalq Kyokuşin-kan Karate Təşkilatının seminarı keçirilib. Seminarda Azərbaycan Tibb Universitetinin "Təbib" Tədris-İdman Mərkəzinin müdiri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov da iştirak edib. 14 ölkədən 300 nəfərin təmsil olunduğu beynəlxalq tədbirə təşkilatın prezidenti Kaiço Hatsuo Royama rəhbərlik edib. Q.Aslanovun verdiyi açıqlamaya görə, 6 gün ərzində səhər-axşam təlim məşqləri keçirilib: "Səhərlər stadionda, meşədə, dənizdə, axşamlar isə zal və stadionda məşqlər oldu. Məşqlər başa çatdıqdan sonra dərəcə imtahanları verdik. Mən də Şihan (usta) adı almaq üçün lazımi normativləri yerinə yetirdim. Nəticə uğurlu alındı və 5-ci dan qara kəmər dərəcəsinə, Şihan statusuna layiq görüldüm."

## ATU-NUN ƏMƏKDAŞI AFRİKALI İDMANÇILARA USTAD DƏRSLƏRİ KEÇİB

2025-ci ilin oktyabr ayının 11-16 aralığında Tunis Kyokuşinkay Federasiyası 18 ölkədən 300 iştirakçı ilə 3-cü dəfə beynəlxalq turnirə və müxtəlif şəhərlərdə təlim məşqlərinə ev sahibliyi edib.

"Təbib" Tədris İdman Mərkəzinin müdiri, Avropa və Asiyada dəfələrlə ən yaxşı hakim seçilən, 5-ci dan qara kəmər ustası, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov turnirin hakimlərinə seminar və idmançılara ustad təlim məşqləri keçmək üçün üçüncü dəfə Tunisə rəsmi dəvət alıb.

Turnirdən əvvəl yarışın baş hakimi, rusiyalı Aleksandr Piçkunovla birlikdə bütün hakimlər üçün seminar təşkil olunub. Seminarda hakimlərə beynəlxalq yarış qaydaları və onlara dəyişikliklər haqqında izahlı məlumatlar verilib, sonra praktik məşğələlər keçirilib.





Beş xalça üzərində iki gün davam edən yarışlarda hakimlərin buraxdığı nöqsanlar yerindəcə ədalət təmsilçimiz tərəfindən aradan qaldırılıb və heç bir idmançının haqsızlıqla üzləşməsinə imkan verilməyib. Yarışlardan sonra proqrama uyğun olaraq Tunisin Monastir, Susse, Gafsa, Mahdiya və Nadhour şəhərlərində ustad təlim məşqləri təşkil olunub. Təmsilçimiz təlim məşqlərində meydanı dünya şöhrətli döyüşçü Leçi Qurbanovla bölüşüb. Ümumilikdə beş şəhərdə 3500-dən çox idmançı və məşqçilərə təlim, ustad məşqləri keçən idman mütəxəssisləri, son bir neçə ildə tunisli idmançıların uğurlara imza atdıqlarını vurğulayıblar.